# QUBA RAYONUN DAĞ-MEŞƏ TORPAQLARININ MÜNBİTLİK PARAMETRLƏRİNİN TƏBİİ VƏ ANTROPOGEN AMİLLƏRİN TƏSİRİ ALTINDA DƏYİŞMƏSİ

**Şabanov C.Ə., Mustafayeva Z.R., Xolina T.A.**

*Bakı Dövlət Universiteti*
*jasarat@mail.ru*

Respublikamızda meşə ekosistemləri istər dağlıq, istərsə də düzən ərazilərdə əhəmiyyətli dərəcədə dəyişikliyə məruz qalmışdır. Enliyarpaqlı və arid meşələr, kserofit kolluqlar və hətta şibləklər üçün əlverişli iqlim şəraiti olan əksər dağlıq rayonların meşəsizləşməsi antropogen amillərin təsirindən baş vermişdir. Son yüzillikdə Azərbaycanın bəzi dağlıq rayonlarında meşələr tamamilə qırılmışdır. Lakin XX əsrin axırlarında təbii, xüsusən də meşə ekosistemlərində antropogen transformasiya geniş miqyas almışdır. Antropogen amillərin təsirindən meşələrin yuxarı sərhədi pozulmuş və aşağı salınmışdır. Demək olar ki, meşənin yuxarı sərhədində meşə bitkisinə rast gəlirmir. Meşənin müasir yuxarı sərhədi respublikamızın dağlıq rayonlarında orta hesabla 1600-2000 hündürlükdən keçir. Bu hündürlüklərdə yüksək gövdəli məhsuldar meşələr çəmənlərlə əvəz olunmuşdur. Bu, nəticədə dağlıq ərazilərin tamamilə meşəsizləşməsinə, eroziya proseslərinin artmasına və geniş sahələrdə bedlendlərin əmələgəlməsinə gətirib çıxara bilər. Hal-hazırda Azərbaycanda təbii ekosistemlərin mühafizəsi üçün, o cümlədən xüsusi mühafizə olunan təbiət ərazilərinin sahələrinin genişləndirilməsi istiqamətində xeyli işlər görülür.

Tərəfimizdən Quba rayonun dağ-meşə torpaqlarının bəzi münbitlik parametrlərinin (humus, ümumi azot, pH və s.) təbii və antropogen amillərin təsirindən dəyişilməsi öyrənilmişdir. Aparılan tədqiqatlar nəticəsində öyrənilən torpaqların əsas münbitlik parametrlərində pisləşmə müəyyənləşdirilmişdir. Belə ki, dağ-meşə-qonur torpaqlarında humusun ehtiyatı 0-100 sm qatda 40-50 il bundan əvvəl 235-458 t/ha təşkil etdiyi halda, hazırda 21% azalaraq, 186-362 t/ha olmuşdur. Dağ-meşə-qəhvəyi torpaqlarda isə bu göstərici 23% azalmış, yəni 228-397 t/ha-dan 176-306 t/ha-ya düşmüşdür. Oxşar dinamika digər münbitlik parametrlərində də nəzərə çarpır. Məsələn, 40-50 il əvvəlki tədqiqat materiallarına əsasən dağ meşə-qonur torpaqlarda ümumi azotun miqdarı üst qatda 0,29-0,49% olmuş, hazırda isə onun miqdarı 0,22-0,39% təşkil etmişdir. Yəni ümumi azotun miqdarı orta hesabla 21% azalmışdır. Mühit reaksiyası zəif turşuluqdan (pH 5,5-6,4) neytrala və ya zəif qələviliyə (pH 6,6-7,2) doğru dəyişmişdir. Dağ meşə-qəhvəyi torpaqlarda ümumi azotun miqdarındakı azalma dağ meşə-qonur torpaqlara nisbətən çox olmuşdur. Belə ki, ümumi azotun miqdarı 24% azalmışdır (0,22-0,41%-dən 0,17-0,27%-ə qədər). Həmçinin mühit reaksiyasının dinamikası bir qədər qələviliyə doğru olmuşdur, yəni pH-ın kəmiyyəti 6,5-7,1-dən 7,2-7,6-a kimi

dəyişmişdir. Dağ-meşə-qəhvəyi torpaqlarda da humusum ehtiyatı 27% aşağı düşmüşdür (215-385 t/ha-dan 157-281 t/ha-ya kimi). Bu torpaqlarda ümumi azotun miqdarında 24% dəyişiklik baş vermişdir. Belə ki, əvvəlki illərdə ümumi azotun miqdarı 0,22-0,41% olduğu halda, indiki dövrdə bu göstərici 0,17-0,32% təşkil etmişdir. Həmçinin bu torpaqların mühit reaksiyasında da qələviliyə doğru dəyişikliyin baş verməsi (pH-ın qiymətinin 6,5-7,1-dən 7,3-7,6-ya qədər artması) müşahidə edilir: Bəzi hallarda aşağı qatlarda pH-ın kəmiyyəti 8,0-ə çatır. Bu dəyişikliyə meşələrin qırılması nəticəsində iqlimin nisbətən aridləşməsi və bozqırlaşma prosesinin artması səbəb ola bilər.

Aparılan tədqiqatlar nəticəsində müəyyən edilmişdir ki, son zamanlar Quba rayonun meşə torpaqlarının münbitlik parametrlərində təbii və antropogen amillərin təsirindən pisləşməyə doğru bəzi dəyişikliklər baş vermişdir. Qeyd etmək lazımdır ki, dağ-meşə-qonur və dağ-meşə-qəhvəyi torpaqlar yayılmış bütün orta dağlıq meşə ekosistemləri torpaqqoruyucu, susaxlayıcı və iqlimtənzimləyici əhəmiyyətə malikdir. Meşələrin qırılması, meşənin yuxarı sərhədində mal-qaranın hədsiz və nizamsız otarılması, torpaqların əkin sahələri altında mənimsənilməsi, düzgün və səmərəli istifadə edilməməsi nəticəsində həmin ərazilərdə eroziya prosesləri artmışdır. Meşə sahəsinin təxminən 22%-i müxtəlif dərəcədə eroziyaya məruz qalmışdır. Meşə torpaqlarının mühafizəsi üçün eroziyaya qarşı mübarizə tədbirlərini gücləndirmək, açıq sahələrdə meşəsalma və yamacbərkidici işlərini aparmaq tövsiyə olunur.